İslam ölkələri şairlərinin şeirləri • İslam ölkələri şairlərinin şeirləri



# Sevgi fəsli

İslam ölkələri şairlərinin şeirləri • İslam ölkələri şairlərinin şeirləri

# Sevgi fəsli

İslam ölkələri
şairlərinin
şeirləri

Bakı
«Çinar-Çap»
2010

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

Ə/ -258356

Tərtibçi və redaktor:
**Ağacəfər Həsənli**

**Sevgi fəsli.** İslam ölkələri şairlərinin şeirləri.
"Çinar-Çap" nəşriyyatı, Bakı-2010. 288 səh.

Bu kitabda İslam ölkələri şairlərinin şeirləri toplanmışdır. Müxtəlif ədəbi nəsilləri təmsil edən söz ustaları əsasən İslami-mədəni-mənəvi dəyərlərin, insan sevgisinin vəsfinə nail olmuş, duyğu və düşüncələrini obrazlı şəkildə ifadə etmişlər.

ISBN 978-9952-447-03-3

## ŞAHİMƏRDAN BÜLBÜLLƏRİ

Şahimərdan, gör necə
xəndan imiş bülbüllərin.
Südtək aydın hər gecə
bir can imiş bülbüllərin.

Bağça-bağda ləhzə-ləhzə
yandılar, odlandılar.
Ah, səməndər könlümə
mehman imiş bülbüllərin.
Gəlsə mehman, sübhəcən
məclis qurar, cəh-cəh vurar,
Şaxələr üstündə dürr,
mərcan imiş bülbüllərin.

Bir cahanda min cahanmış,
min cahanmış sazla söz,

Mən ki torpağam, fəqət,
asman imiş bülbüllərin.

Dinlədim mən, anladım mən,
lal olub, heyran qalıb,

Gördüm, heyran halıma
heyran imiş bülbüllərin.

Fışqırıb daşdan çıxır
ağ çeşmələr, göy çeşmələr.
Çeşmələr üstündəcə
seyran imiş bülbüllərin.
Çeşmətək könlümdə qaldı
bülbülüstandan nəva.
Sən demə, hər dərdimə
dərman imiş bülbüllərin.

## DƏM ÖTƏR, DƏMLƏR ÖTƏR

Dəm ötər, dəmlər ötər,
onlar ötər, yüzlər ötər.
Gecə-gündüztək ömürdən
gecə-gündüzlər ötər.

Ötüşür dalğa kimi
gör necə hər yerdə zaman.
Yeri dəryalar öpər,
göydə də ulduzlar ötər.

Ötməyən kimdi, duran kimdi,
qalan kimdi, deyin?



Bağda bülbüllər ötərlər,
suda qunduzlar ötər.

Ötdülər çox-çox əzizlər,
səfər üstündə hamı.
Gözlərimdən nə qədər
gözlər ötər, sözlər ötər.

Sönməyən bircə günəş,
bir də ki, eşqimdi mənim.
Ürəyimdən nə qədər
izlər ötər, hisslər ötər,

El — gözüm, dil də — canım,
qurban olaq el və dilə.
El və dil vardısa... candan
süzülər, sözlər ötər.

## GEYİMİM, KƏFƏNİM

Sözdən söz yaranır, məsəldən məsəl,
Məsəllər üstündə qalxıb boy atdıq.
Köhnə bir donum var, geysəm — çox gözəl,
Cismimə can gələr, cana rahatlıq.

Sözdən söz doğulur, kəlamdan kəlam,
Kişinin düz sözə ehtiyacı var.
Köhnə araxçını başıma qoysam,
Sanaram başımda mərdlik tacı var.

«Gözəllik on imiş, doqquzu da don».
Kimdir deyən bunu? Söz memarımız!

Hansıdır bəşərin ali geyimi?
Nədən biçilmişdir toy paltarımız?

Xalqımın dili var, — hər sözü atəş,
Hər səsi, hər nəbzi mənə qol-qanad.
Əynimdə— geyimdir, beynimdə — günəş.
Onsuz mən nəyəm ki? Quruca bir ad!

Sən dil ağacının şah budağısan,
Mənim özbək dilim — zatım, nicatım.
Qorumaq çətinmiş, vəsf etmək asan,
Ölsəm — kəfənimsən, qalsam — həyatım.

## AŞİQANƏ

Aşiqəm, deməli, təşnəyəm sənə,
Gedirəm... hardasa çağlar budağım.
Min yalan fövqündə bir həqiqət var:
Sənin yandırmağın, mənim yanmağım.

Gecələr üstündə gül açar çəmən,
Ulduzlar çəməndə ərməğan, lalə.
Bəlkə yetmişə də bu cür yetərəm,
Gözlərim şeh dolu, arzum — şəlalə.

Olan olub keçdi, gələn gələcək,
Ey gecəm, gündüzüm, ey qaram, ağım,
Əbədi qalacaq aləmdə yalnız
Sənin yandırmağın, mənim yanmağım.



## SİRR

Gərək açmayasan dünya sirrini,
Açsan, qənim olar öz sirrin sənə.
Dedim təsadüfən dosta sirrimi,
Elə bil dosta yox, dedim düşmənə.

Açdığım sirr oldu özümə qənim,
Bir yox, iki dəfə bağrıma batdı.
Bir güllə atmışdı mənə düşmənim,
Dostum onu mənə top kimi atdı.

## RƏSSAMA

Bacarsan, ismətin təsvirini ver,
Sonra nəzakətin surətini çək.
Bunu bacarmasaq, xalqın, ölkənin
Qəlbini kağıza nə cür köçürək?

Gör hara yüksəlib qızıl kəhkəşan...
Görə bilərsənmi təkcə göz ilə?
Sən əlində fırça, baxarsan heyran,
Mən də verəmmədim onu söz ilə.